

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

3 iyul 2021-ci il
Şənbə

AZƏRBAYCAN POLİSİ 103

1933-cü ildən çıxır
№ 24 (3537)



# Böyük Zəfər 103 illik fəaliyyət tarixinin ən möhtəşəm səhifələrindəndir

## Azərbaycan polisi indi üç cəbhədə qəhrəmanlıq, vətənpərvərlik və məsuliyyət missiyası nümayiş etdirir

***İstiqlalımızın polad sipərlərindən, sabitliyin və təhlükəsiz həyatın əsas təminatçılarından olan Azərbaycan polisi fəaliyyətinin 103-cü ildönümünə üç cəbhədə apardığı mübarizədə qazandığı uğurlarla qədəm qoyur. Böyük Zəfərə verdiyi töhfələri, cinayətkarlığa qarşı mübarizədə davamlı nailiyyətləri və pandemiya dövründəki fədakarlıqları daxili işlər orqanlarının peşə bayramında qürur duyacağı məqamlardır.***

Şanlı tarix

Tarixinin ən qüdrətli, zəfərli dövrünü yaşayan Azərbaycan iqtisadi-sosial inkişaf modeli ilə yanaşı, həm də təhlükəsizliyin və sabitliyin etibarlı təminatı baxımından dünyada mükəmməl nümunələrdən birini yaradıb. Transmilli mütəşəkkil cinayətkarlığın, o cümlədən beynəlxalq terrorçuluğun sərhəd tanımadığı, kriminogen durumun qlobal miqyasda kəskinləşdiyi müasir dövrdə ölkəmiz, Prezidentin təbirincə desək, sabitlik adasına çevrilib. Bu nailiyyətin əldə olunmasında, şübhəsiz ki, daxili işlər orqanlarının da əzmkar fəaliyyəti qeyd edilməlidir.

Xalq Cümhuriyyəti hökumətinin qərarına əsasən, 1918-ci il iyulun 2-də Yelizavetpol (Gəncə) quberniyasında ilk milli polis orqanlarının yaradılması ilə Azərbaycan polisi çox çətin tarixi sınaqlar dövründə şərəfli missiyasının icrasına başladı. 103 yaşlı daxili işlər orqanları ictimai asayişin qorunmasında, dövlətimizə qarşı yönələn cinayətkar qəsdlərin qarşısının alınmasında, torpaqlarımızın müdafiəsində, mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə və digər istiqamətlərdə daim müstəsna xidmətlər göstərib. Xaosdan qurtuluşa keçidin bütün keşməkeşli, ziddiyyətli məqamları, ən əsası isə dövlətçilik təəssübü, mübarizliyi və fədakarlığı milli polisimizin fəaliyyət salnaməsini təşkil edir.

*Ardı 3-cü səhifədə.*

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin zabitlərinə ali xüsusi rütbələrin verilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin aşağıdakı zabitlərinə polis general-mayoru ali xüsusi rütbəsi verilsin:

polis polkovniki Əlaslan Qaçay oğlu Ağayevə
polis polkovniki İslam Möhsüm oğlu Hümbətova
polis polkovniki Əkbər Məcid oğlu İsmayılova
polis polkovniki Əbülfət Əhəd oğlu Rzayevə.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 2 iyul 2021-ci il.*

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin bir qrup əməkdaşının təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsində, ölkədə tətbiq edilmiş xüsusi karantin rejiminin tələblərinə riayət olunmasına nəzarət edilməsində, hərbi vəziyyət rejiminin təmininə yönəlmiş tədbirlərin həyata keçirilməsində, işğaldan azad olunmuş ərazilərdə ictimai asayişin və təhlükəsizliyin təmin edilməsində xidməti vəzifələrini yerinə yetirməkdə fərqləndiklərinə görə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Kərimov Oqtay Əsgər oğlu – polis general-mayoru

**"Vətən uğrunda" medalı ilə**

Abdullayev Zaur Natiq oğlu – polis general-mayoru
Kərimov Orduxan Alqayıt oğlu – istefada olan polis polkovniki
Mahmudov Toğrul Ramiz oğlu – polis polkovniki
Mehdiyev Fərhad Süleyman oğlu – polis polkovniki
Məmmədov Xəqani Seyfulla oğlu – polis polkovniki
Məmmədov Mahir Əli oğlu – polis polkovniki
Məmmədov Müzəffər Qəzənfər oğlu – polis polkovniki
Mirhuseynov Xəyyam Cahangir oğlu – polis polkovniki
Nəbiyev Zaur Əli oğlu – polis polkovniki
Abdullayev Şahid Mürsəl oğlu – polis polkovnik-leytenantı
Heydərov Arzu Afət oğlu – polis polkovnik-leytenantı
Quliyev Yelmar Məhər oğlu – polis polkovnik-leytenantı
Qurbanov Rəhman Niyazi oğlu – polis polkovnik-leytenantı
Məmmədov Məmmədəli Həsən oğlu – polis polkovnik-leytenantı
Məmmədov Rüfət Nizami oğlu – polis mayoru
Behbudov Murad Arif oğlu – polis kapitanı
Əliyev Mübariz Vəzir oğlu – polis baş serjantı

**"İgidliyə görə" medalı ilə**

Məhərrəmov Səməd Akif oğlu – polis polkovniki
Hacıyev Namiq Fərrux oğlu – polis polkovnik-leytenantı
Salahov Faiq Fərman oğlu – polis polkovnik-leytenantı
Əliyev Mahir Boran oğlu – polis mayoru
Əliyev Səməndər Əziz oğlu – polis mayoru
Məmiyev Razi Aftandil oğlu – polis leytenantı
Məmmədov Mahir Tahir oğlu – polis baş serjantı
Xudiyev Vüqar Yusif oğlu – istefada olan polis baş serjantı.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 2 iyul 2021-ci il.*

## İşğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının həqiqi hərbi xidmət edən hərbi qulluqçularının aylıq vəzifə maaşlarına Azərbaycan Respublikası Prezidentinin əlavəsinin müəyyən edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, işğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının həqiqi hərbi xidmət edən hərbi qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. İşğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının həqiqi hərbi xidmət edən hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq vəzifə maaşlarına 2021-ci il iyulun 1-dən Azərbaycan Respublikası Prezidentinin əlavəsi müəyyən edilsin.

2. Müəyyən edilsin ki, bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan hərbi qulluqçulara (bundan sonra – hərbi qulluqçular):

2.1. Azərbaycan Respublikası Prezidentinin əlavəsi hərbi qulluqçuların aylıq vəzifə maaşlarının 50 faizi həcmində 5 (beş) il müddətində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən ödənilir;

2.2. 2021-ci ildə Azərbaycan Respublikası Prezidentinin əlavəsinin ödənilməsi "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 dekabr tarixli 1241 nömrəli Fərmanının 1.3.5.2-ci "Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanları üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər" yarımbəndində nəzərdə tutulmuş vəsaitin, növbəti illərdə isə dövlət büdcəsinin Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin saxlanılması xərclərində nəzərə alınması hesabına təmin edilir;

2.3. Azərbaycan Respublikası Prezidentinin əlavəsi hərbi qulluqçulara onların Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış sayına və tərkibinə uyğun olaraq ödənilir.

3. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

4. Bu Sərəncam 2021-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 2 iyul 2021-ci il.*

# AZƏRBAYCAN POLİSİNİN FƏALİYYƏTİ DÖVLƏTƏ VƏ XALQA SƏDAQƏT NÜMUNƏSİDİR



**Azərbaycan Polisinin yaranmasının 103-cü ildönümü münasibətilə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov başda olmaqla Nazirliyin rəhbər heyəti Fəxri xiyabana gələrək ulu öndər Heydər Əliyevin abidə kompleksi önünə tər çiçək dəstələri düzüblər. Həmçinin görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi ehtiramla yad olunub.**



Sonra respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş mərd mübarizlərin uyuduğu Şəhidlər xiyabanı ziyarət olunub.

İyulun 2-də Daxili İşlər Nazirliyinin Polis Akademiyasında Azərbaycan Polisi Gününə və 2020-2021-ci tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib. Respublikanın daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov tədbirdə iştirak edib.

Tədbir iştirakçıları xalqımızın ümummilli lideri Heydər Əliyevin, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalmış, xidməti borcu yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Əlamətdar gün münasibəti ilə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, zati-alilərinin təbriklərini və ən xoş arzularını şəxsi heyətə çatdıran nazir general-polkovnik Vilayət Eyvazov Azərbaycan Polisinin keçdiyi şərəfli inkişaf yolu, xüsusən ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlərdə daxili işlər orqanlarının fəaliyyətinin təşkili, peşəkar kadr özəyinin yaradılması, möhtərəm Prezident cənab İlham Əliyevin başçılığı ilə daxili işlər orqanlarında həyata keçirilən islahatlardan, struktur dəyişikliklərindən, xidmət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışıb.



Müasir maddi-texniki bazaya, infrastruktura və qabaqcıl texnologiyaya malik mobil daxili işlər orqanlarında yaradılmış elektron xidmətlərin, veb-saytların, qaynar xətlərin, həmçinin «ASAN xidmət» mərkəzlərində fəaliyyətin vətəndaş məmnunluğunun təmin edilməsinə yönəldiyini qeyd edən general-polkovnik V.Eyvazov şəxsi heyətin peşə hazırlığının zamanın yeni təhdid və çağırışlarına cavab verən səviyyəyə yüksəldilməsi üçün ardıcıl iş aparıldığını da qeyd edib.

O bildirib ki, son 18 ildə 22 mindən çox cinayətkar qrup və dəstə zərərsizləşdirilib, əllərdə qanunsuz saxlanılan 17 minə yaxın odlu silah yığılıb və onun tətbiqilə törədilən hüquqazidd əməllərin sayı xeyli azalıb. Cinayətlərin orta hesabla 84 faizinin açılması təmin olunub, axtarışda olan 58 mindən çox təqsirləndirilən şəxs tutulub, qanunsuz dövriyyədən 13 tona yaxın narkotik vasitə çıxarılıb. Respublikada əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı bu gün də əksər dünya ölkələri ilə müqayisədə xeyli azdır.

Hazırda dünyanın, o cümlədən Azərbaycanın, son yüz ilin ən böyük qlobal çağırışlarından biri ilə üzləşdiyini, bəşəriyyətin COVID-19 virusuna qarşı mübarizə apardığını, bir ildən artıq müddətdə xüsusi karantin rejimində yaşadığımızı bildirən general-polkovnik V.Eyvazov bu müddətdə polis əməkdaşlarının və Daxili Qoşunların hərbi qulluqçularının gücləndirilmiş iş variantında xidmət apardığını, insanların həyati problemlərinin həllinə yardımçı olduğunu vurğulayıb. O da qeyd olunub ki, aidiyyəti dövlət orqanları ilə qarşılıqlı əlaqədə ölkəmizdə keçirilən beynəlxalq əhəmiyyətli bütün kütləvi tədbirlərdə ictimai qayda və təhlükəsizlik yüksək səviyyədə təmin edilib.

*Ardı 5-ci səhifədə.*

# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR ORQANLARININ ŞƏXSİ HEYƏTİNƏ VƏ VETERANLARINA



***Hörmətli həmkarlar!***

***1918-ci il iyulun 2-də asayişi mühafizə dəstələri ilə fəaliyyətə başlayan polis orqanları ötən müddətdə şərəfli bir xidmət yolu keçərək böyük təcrübə qazanmış, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə dövlətçiliyin dayaqlarından birinə çevrilmişdir.***

***Bu gün Azərbaycan Polisi respublikamızın ərazi bütövlüyünün, dövlətin konstitusiya quruluşunun qorunmasında önəmli xidmətləri və güclü nizam-intizamı olan mühüm bir dövlət təsisatıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində fəaliyyəti daim təkmilləşən, xidməti vəzifələri səmərəli yerinə yetirmək üçün bütün lazımi şəraitə, müasir maddi-texniki bazaya və infrastruktura malik polis orqanları cinayətkarlığa, onun transmilli mütəşəkkil növlərinə qarşı mübarizədə, asayişin qorunmasında, insan hüquq və azadlıqlarının müdafiəsində əhəmiyyətli nəticələrə nail olmuşdur. Vətən müharibəsi günlərində hərbi vəziyyətin təmini vəzifələrini də layiqincə yerinə yetirmiş və hazırda işğaldan azad olunmuş ərazilərdə önəmli xidmətini, həmçinin xüsusi karantin rejiminə nəzarət funksiyalarını əzmlə həyata keçirir.***

***Xidmətdə fərqlənən əməkdaşların möhtərəm Prezident tərəfindən dövlət mükafatlarına layiq görülməsi Zati-alilərinin bütövlükdə Azərbaycan polisinin əməyinə verdiyi böyük dəyərin əyani ifadəsidir.***

***Əminəm ki, bundan sonra da sabitliyin və təhlükəsizliyin keşiyində qətiyyətlə dayanacaq, peşəkarlığınız, xalqa və Vətənə sədaqətli xidmətinizlə yeni-yeni nailiyyətlər əldə edəcəksiniz.***

***Azərbaycan polisinin yaranmasının 103-cü ildönümü münasibətilə Sizi, vəzifə borcunu yerinə yetirərkən həlak olmuş əməkdaşlarımızın ailə üzvlərini səmimi qəlbdən təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, xidmətdə və şəxsi həyatda uğurlar arzulayıram!***

***Bayramınız mübarək!***

*Vilayət Eyvazov,*
*Azərbaycan Respublikasının*
*daxili işlər naziri, general-polkovnik*

# YENİ İNZİBATİ BİNALARIN AÇILIŞI OLUB



Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin və Abşeron Rayon Polis İdarəsinin Saray Polis Bölməsinin yeni inzibati binaları istifadəyə verilib. Hər iki tədbirdə belə müasir tikililərin ümumən vətəndaşlara, eyni zamanda daxili işlər orqanlarına göstərilən diqqət və qayğının bariz nümunəsi olduğu məmnunluqla qeyd edilib.



Bildirilib ki, DİN-in Baş Dövlət Yol Polisi İdarəsinə müraciət edən vətəndaşların məmnunluğunun yüksək səviyyədə təmin edilməsi və onlara göstərilən xidmətin keyfiyyətinin artırılması məqsədilə inşa edilən yeni inzibati bina zəruri avadanlıq, inventar və kommunikasiyalarla təchiz olunub. Geniş dəhlizlərə və otaqlara malik iki mərtəbəli bu binada sənədlərin qəbulu və verilməsinin operativ qaydada təşkili üçün lazımi şərait yaradılıb.

Abşeron RPİ-nin Saray Polis Bölməsinin yeni istifadəyə verilən iki mərtəbəli inzibati binası da bura müraciət edəcək vətəndaşlara göstərilən xidmətin keyfiyyətinin daha da artırılması məqsədilə müasir standartlara uyğun olan zəruri avadanlıq, inventar və kommunikasiyalarla təchiz edilib, ərazidə abadlaşdırma və yaşıllaşdırma işləri yerinə yetirilib.

Yeni inzibati binada xidmət edəcək polis əməkdaşları da Saray qəsəbəsində sabitliyin, sakinlərin əmin-amanlığının qorunmasına, cinayətkarlıqla mübarizəyə, insan hüquq və azadlıqlarının təmininə, vətəndaşların təhlükəsizliyinin, əmlaklarının cinayətkar qəsdlərdən qorunmasına öz töhfələrini verəcəklər.

*Əvvəli 1-ci səhifədə.*

Bu gün ictimai sabitliyin təminatına, kriminogen duruma nəzarətə görə Azərbaycanın MDB və Şərqi Avropa məkanında yüksək nəticələrə sahib olması faktı da, heç şübhəsiz, bu tarixin şərəfli səhifələrindəndir.

Daxili işlər orqanlarının fəaliyyətinin hər bir dövrü zəngin və məsuliyyətli tarixi, Vətən və xalq qarşısında vəzifə öhdəliklərinin layiqincə doğrulmasını real əks etdirir. Bu strukturun fəaliyyətinin ən şanlı, uğurlu mərhələsi isə Heydər Əliyevlə, onun bu gün də davam edən ideyaları ilə birbaşa bağlıdır. Azərbaycan polisinin fəaliyyətində köklü islahatların yarandığı ilk "qızıl dövr" Ulu Öndərin ötən əsrin 70-80-ci illərdəki rəhbərliyi altında gerçəkləşdi. Həmçinin 1993-cü ilin 15 iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev cəmiyyətin hava və su kimi ehtiyac duyduğu sabitliyi bərqərar etmək üçün daxili işlər orqanlarına arxalandı. Azərbaycan polisi xalqa layiqli xidməti ilə dövlət quruculuğu prosesində öz möhkəm, sarsılmaz, şərəfli yerini tutdu.

İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə isə Daxili İşlər Nazirliyi fəaliyyətini daha da təkmilləşdirmiş, işini müasir dünyanın çağırışlarına uyğun qurmuşdur. Ən mühümü daxili işlər orqanlarındakı mənəvi ruh sağlamlığı, şəxsi heyətin Vətən və xalq qarşısındakı tarixi məsuliyyət hissi daha da yüksəlmişdir.

### Vətən savaşının igid fədailəri

Xalqımızın misilsiz bayramına, böyük iftixarına çevrilən Azərbaycanın böyük Zəfəri daxili işlər orqanlarının əməkdaşları üçün də müqəddəs dəyər kimi qəbul edilir və şəxsi heyət builki peşə bayramını həmişəkindən daha coşqulu, inamlı keçirir.

Vətən savaşındakı Qələbənin qazanılmasında bu şəxsi heyətin də əlahiddə töhfələri oldu. Daxili işlər orqanları savaşın ilk dəqiqələrindən etibarən Ali Baş Komandanın müsəlləh əsgərləri kimi vəzifə borclarını şərəflə, məsuliyyətlə icra etməyə başladılar.

Bir məqamı da qeyd edək ki, hələ Birinci Qarabağ savaşı dönəmində ərazi bütövlüyü uğrunda döyüşlərdə daxili işlər orqanlarının və Daxili Qoşunların şəxsi heyəti rəşadətlə döyüşmüş, böyük qəhrəmanlıq örnəyi yaratmışdı. Öncəki savaşda əməkdaşlardan 932 nəfəri şəhid olmuş, 681 nəfəri isə yaralanmışdı.

Vətən savaşında bu mərdlik, vətənpərvərlik nümunələrini davam etdirən şəxsi heyət böyük şücaətlə xidmət göstərmiş, xalqımızın qəhrəmanlıq tarixinə şərəf izlərini həkk etdirmişdir. Düşmənlə ağır döyüşlərdə Daxili İşlər Nazirliyinin mühüm təşkilati strukturu olan Daxili Qoşunların 66 hərbçisi şəhid olmuş, 346 nəfər isə yaralanmışdır. Prezident tərəfindən 1377 hərbi qulluqçu yüksək dövlət təltiflərinə, 4 nəfər "Vətən müharibəsi qəhrəmanı" adına layiq görülmüşdür.




# BÖYÜK ZƏFƏR 103 İLLİK FƏALİYYƏT TARİXİNİN ƏN MÖHTƏŞƏM SƏHİFƏLƏRİNDƏNDİR

## Azərbaycan polisi indi üç cəbhədə qəhrəmanlıq, vətənpərvərlik və məsuliyyət missiyası nümayiş etdirir

### Arxa cəbhənin qəhrəmanları

Bir məqamı da vurğulayaq ki, daxili işlər orqanlarının əməkdaşları arxa cəbhədə də rəşadətli xidmətlərini davam etdirirdilər. Ötən il Azərbaycanda hərbi vəziyyətin elan olunması ilə əlaqədar 22 şəhər və rayonda komendant saatı tətbiq edildi. Prezidentin sərəncamı ilə daxili işlər naziri müvafiq ərazilər üzrə komendant təyin olundu. 2020-ci il sentyabr ayının 28-dən dekabrın 12-dək qüvvədə olan komendant saatı dövründə hərbi vəziyyət rejiminin əsas təminatçıları olaraq daxili işlər orqanları çox fədakar, əzmkar xidmət göstərdilər. Bütün şəxsi heyət bu prosesin layiqincə icrası üçün yalnız hərbi vəziyyət rejiminin tətbiq edildiyi inzibati ərazi vahidlərində deyil, ümumiyyətlə, respublika üzrə səfərbər oldular.










Komendant saatının tətbiq olunduğu şəhər və rayonlarda minlərlə əməkdaş və hərbi qulluqçu cəlb edilərək, xüsusi giriş-çıxış rejiminin təşkili məqsədilə stasionar postlar quruldu, müvafiq icazəsi olmayan şəxslərin, o cümlədən nəqliyyat vasitələrinin hərəkəti məhdudlaşdırıldı. Həyat təminatlı mühüm əhəmiyyətli obyektlərin, yaralanmış hərbi qulluqçuların yerləşdirildiyi mülki xəstəxanaların mühafizəsi gücləndirildi. Polis əməkdaşları mülki əhali üçün daldanacaqların və sığınacaqların hazırlanmasında yaxından iştirak etdi, zəruri hallarda insanların oraya yerləşdirilməsini, onlar arasında izahat işlərinin aparılmasını təmin etdi.

Düşmənin artilleriya atəşinin nəticələrinin aradan qaldırılmasında, yaralanmış mülki şəxslərin dağıntılar altından çıxarılıb tibb müəssisələrinə çatdırılmasında aidiyyəti dövlət orqanlarına bütün lazımi kömək göstərildi. Yerli icra hakimiyyətləri ilə birgə dinc sakinlərin cəbhəboyu zonadan təxliyə olunması üzrə tədbirlər də görüldü. Müvəqqəti boşaldılmış yaşayış məntəqələrində asayişin qorunması, o cümlədən fiziki və hüquqi şəxslərə məxsus əmlakın talanmasının qarşısının alınması üçün fasiləsiz xidmət aparıldı. "102" xidmətinə daxil olan zənglər əsasında partlamamış yüzlərlə mərmilərin düşdüyü əraziyə ANAMA-nın qüvvə və vasitələri cəlb edildi, mərmilərin zərərsizləşdirilməsi prosesində zəruri təhlükəsizlik tədbirləri görüldü.

Ölkədə elan edilmiş qismən səfərbərlik tədbirlərinin təşkilində, o cümlədən çağırışçıların təyinat məntəqələrinə təhlükəsiz çatdırılmasında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli qurumlarına lazımi kömək göstərildi. Cəbhəboyu ərazilər istiqamətində bütün avtomobil yollarında nəqliyyatın fasiləsiz hərəkətinin təmin edilməsi üçün müvafiq təhlükəsizlik və nəzarət tədbirləri də həyata keçirildi. Bütövlükdə respublikanın daxili işlər orqanları və Daxili Qoşunlar tərəfindən hərbi vəziyyət rejimindən irəli gələn vəzifələrin vaxtında və tam yerinə yetirilməsi, ictimai asayişin, insanların həyatının, sağlamlığının, hüquq və azadlıqlarının etibarlı qorunması istiqamətində bütün zəruri tədbirlər görüldü.

Sevindirici haldır ki, bu müddətdə hərbi vəziyyət rejiminin tələblərinin kütləvi pozuntusuna rast gəlinmədi və vətəndaşlarımız komendant saatının təmin olunmasına cəlb edilmiş polis əməkdaşlarının, hərbi qulluqçuların qanuni tələblərinə ciddi əməl etdilər. Xalqımızın "Hər şey cəbhə üçün! Hər şey Vətən üçün!" məramı ətrafında birləşməsi hərbi vəziyyət və komendant saatı rejimlərinin də əsasən problemsiz icrasını təmin etdi.

### Qarabağda xidməti fəaliyyətin yeni mərhələsi

İşğaldan azad olunmuş ərazilərdə xüsusi idarəetməni həyata keçirən komendantlıqların təşkili, sonradan isə polisin tammiqyaslı xidmətə keçməsi ilə daxili işlər orqanlarının fəaliyyətində yeni mərhələ başlayıb. Hələ Ermənistan təslimçilik aktını imzalamamış və savaş bitməmiş möhtərəm Prezidentimiz böyük müdriklik və uzaqgörənliklə "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" fərman imzaladı. 29 oktyabr 2020-ci il tarixli fərmana əsasən, işğaldan azad olunmuş ərazilərdə hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqların yaradılması qərara alındı.

Fərmanın imzalanmasından dərhal sonra bütün ərazilər üzrə komendantlıqlar yaradıldı, müvəqqəti komendantlar təyin olundu. Daxili İşlər Nazirliyinin həyata keçirdiyi və digər dövlət strukturlarının təmsilçilərinin iştirakı ilə komendantlıqlar işğaldan azad olunmuş ərazilərdə giriş-çıxışın xüsusi rejiminin tətbiqindən başlayaraq bütün digər istiqamətlər üzrə mühüm vəzifələri icra etdilər.

İndi isə polis işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərir, əməkdaşlar, eləcə də Daxili Qoşunların hərbi qulluqçuları xidməti vəzifələrini layiqincə icra edirlər.

Böyük fədakarlıqlar, itkilər hesabına işğaldan azad olunan torpaqlarda təhlükəsizliyi təmin etmək, asayişi yaratmaq, vətəndaşların orada normal yaşayışı üçün müvafiq tədbirləri həyata keçirmək məqsədilə polis səfərbər olunub və onun şəxsi heyəti bu günü yalnız vəzifə borcu kimi yox, həm də şərəfli missiya kimi qəbul edir.

Xüsusi vurğulanmalıdır ki, yerli polis bölmələrinin əməkdaşları ilə yanaşı, ətraf bölgələrdə xidmət keçən əməkdaşlar da məhz işğaldan azad edilmiş ərazilərdə xidmətlərini davam etdirmək arzusundadırlar və bununla əlaqədar çoxsaylı müraciətlər olur.

Müzəffər Ali Baş Komandanın "Qarabağa, tarixi torpaqlarımıza onun sahibləri, biz qayıtmışıq. Bu torpaqlardan bir də heç vaxt çıxmayacağıq" bəyanatı da daxili işlər orqanlarının əməkdaşları üçün Qarabağ bölgəsində xidmətin əsas məramı, məqsədi və hədəfidir.

### Pandemiyaya qarşı prinsipial mübarizə

Azərbaycanda 2020-ci il mart ayının 14-dən etibarən, yəni 16 aydan artıqdır ki, xüsusi karantin rejimi tətbiq olunub. Respublikamızın şəhər və rayonlarında karantin qaydalarına əməl olunması məqsədilə daxili işlər orqanlarının əməkdaşları tərəfindən gücləndirilmiş iş variantında xidmət aparılmaqla nəzarət-profilaktik tədbirlər davamlı olaraq həyata keçirilir.

Müəyyən dövrlərdə bu rejim sərtləşdirilib, məhdudiyyətlər tətbiq olunub. Bu sahədə Prezidentin rəhbərliyi altında aparılan dövlət siyasəti nəticəsində pandemiyada əvvəllər müşahidə olunan riskli vəziyyət aradan qaldırılıb, yoluxma və ölüm sayları minimuma endirilib. Bu şərait isə karantin rejiminin yumşaldılmasına və müəyyən məhdudiyyətlərin aradan qaldırılmasına imkan yaradıb. Bu müsbət gedişatın yaranmasının mühüm səbəbi məhz məhdudiyyətlərin tətbiqi və sərt rejimin elan edilməsi olmuşdu. Əgər insanların təmasını azaldan, sosial məsafə qaydasını müəyyənləşdirən və digər məlum qadağalar, eləcə də bu sahədə daxili işlər orqanlarının prinsipial fəaliyyəti olmasa idi, indi ölkəmizdə vəziyyət dünyanın əksər dövlətlərində müşahidə olunan acınacaqlı vəziyyətlə eyni olardı.

*Ardı 4-cü səhifədə.*

# BÖYÜK ZƏFƏR 103 İLLİK FƏALİYYƏT TARİXİNİN ƏN MÖHTƏŞƏM SƏHİFƏLƏRİNDƏNDİR

## Azərbaycan polisi indi üç cəbhədə qəhrəmanlıq, vətənpərvərlik və məsuliyyət missiyası nümayiş etdirir














*Əvvəli 3-cü səhifədə.*

İşğaldan azad edilmiş və minalardan təmizlənməmiş ərazilərə vətəndaşlarımızın qanunsuz yolla keçməyə göstərdikləri cəhdlər qədər təhlükəli digər misal elə pandemiyaya qarşı tətbiq olunan qadağalara etinasız yanaşmaqdır. Hər iki məsələ ilə bağlı tətbiq olunan məhdudiyyətlərin polis əməkdaşları tərəfindən qətiyyətlə həyata keçirilməsi birmənalı olaraq məhz vətəndaşlarımızın həyat və sağlamlığının təhlükəsizliyi üçündür.

Virusa yoluxmuş şəxslərin müalicə aldığı, eləcə də virusa yoluxmaları ehtimal olunanların karantinə yerləşdirildiyi xəstəxanaların və digər obyektlərin sutkalıq mühafizəsi daxili işlər orqanları tərəfindən davam etdirilir. Hospitalizasiya edilənlərin yaşayış yerlərinin, onlar ilə təmasda olmuş şəxslərin müəyyən edilib tibbi müayinələrə cəlb edilməsində tibb müəssisələrinə lazımi kömək göstərilir. Ev şəraitində müalicə alan virusa yoluxmuş xəstələrin digər şəxslərlə təmasının istisna edilməsi məqsədilə yerli icra hakimiyyətləri, TƏBİB-in ərazi qurumları və digər dövlət orqanları ilə qarşılıqlı əlaqədə zəruri tədbirlər görülür.

Qaydalara əməl etməyən şəxslərə DİN əməkdaşları tərəfindən xəbərdarlıq və digər inzibati tənbeh tədbirləri, bəzən sərt cəzalar tətbiq edilir. Xüsusi karantin rejiminin tələblərini pozan şəxslər haqqında inzibati tənbehlər tətbiq edilib. O cümlədən xüsusi karantin rejiminin tələblərini pozmaqla fəaliyyət göstərən obyektlərin sahibləri barədə inzibati məsuliyyət tədbirləri görülür. Yaşayış yerini tərk etmiş COVID-19 diaqnozlu mindən çox şəxs müəyyən edilib, onlardan infeksiyanın yayılması üçün real təhlükə yaradanlar barədə isə cinayət işləri başlanılıb.

Daxili İşlər Nazirliyinin rəsmiləri dəfələrlə bəyan ediblər ki, bu cəzalar yeganə çıxış yolu deyil. İctimai qınaq, məzəmmət və nəzarət nazirliyin bu prosesdə üstünlük verdiyi və cəmiyyətdən daha çox gözlədiyi reaksiyadır. Karantin rejimi dövrü üçün qüvvədə olan qaydalara əməl etmək mütləq və vacibdir. Biz amansız virusa yalnız birlikdə, qaydalara riayət etməklə qalib gələ bilərik.

Sosial izolyasiya tədbirlərinin icrası sahəsində daxili işlər orqanlarının əməkdaşları üzərlərinə düşən vəzifələri uğurla yerinə yetirir, sayıqlığı itirmirlər. İctimaiyyət tərəfindən bu xidmətin həssaslıqla və minnətdarlıq hissi ilə qarşılanması da xüsusi təqdirə layiqdir.

### Azərbaycan polisinin fəaliyyəti təqdir edilir

Vətəndaşların əmin-amanlığının yüksək səviyyədə təmin edildiyi, təhlükəsizliyinin etibarlı qorunduğu dövlət imicini Azərbaycan daim möhkəmləndirir. Ölkəmiz yenə də əhalinin say nisbəti üzrə cinayətlərin azlığına görə MDB və Şərqi Avropa məkanında öncül mövqeyini qoruyur. Davos Forumunun son hesabatına əsasən, Azərbaycan mütəşəkkil cinayətkarlığa qarşı mübarizə indikatoru üzrə 141 ölkə arasında 18-ci, polis orqanlarına əhalinin etibarına görə 30-cu yerə yüksəlib.

Dövlət müstəqilliyi bərpa edildikdən sonra respublikada daxili sabitliyin təmin edilməsində, əməliyyat şəraitinin və kriminogen durumun stabilləşdirilməsində, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsində polis böyük rol oynayıb. Təkcə bir faktı xatırlatmaq kifayətdir ki, müstəqillik illərində xidməti vəzifələri yerinə yetirərkən daxili işlər orqanlarının 102 əməkdaşı həlak olub, 2796 əməkdaşı xəsarət alıb. Yaxud da son 18 ildə 22 mindən çox cinayətkar qrup və dəstə zərərsizləşdirilib, əllərdə qanunsuz saxlanılan 17 minə yaxın odlu silah yığılıb və onun tətbiqilə törədilən hüquqazidd əməllərin sayı xeyli azalıb.

Cinayətlərin orta hesabla 87 faizinin açılması təmin olunub, axtarışda olan 58 mindən çox təqsirləndirilən şəxs tutulub, qanunsuz dövriyyədən 13 tona yaxın narkotik vasitə çıxarılıb.

Ölkəmizdə müasir dövrdə kriminogen durumun vəziyyətinə bir faktın timsalında nəzər salaq. Ötən il 44 gün ərzində müharibə getdi. Həmin vaxt olduqca həssas dövr idi, hər an vəziyyət gərginləşə bilərdi və antimilli, düşmən qüvvələr tərəfindən buna cəhdlərin göstəriləcəyi də istisna olunmurdu. Ancaq ölkədə elə möhkəm ictimai sabitlik bərpa olunub ki, komendant saatı dövründə asayişə xələl gətirəcək ciddi heç bir hadisə baş vermədi. Yəni xalqımız, vətəndaşlarımız özləri də böyük çətinliklə, məşəqqətlə əldə olunan sabitliyə sahib çıxırlar.

Son il ərzində də daxili işlər orqanları vəzifələrini uğurla icra edib, vətəndaşların mənafeləri etibarlı şəkildə qorunub, kriminogen durum nəzarətdə saxlanılıb. Qeydə alınan cinayətlərin 90 faizə qədərini böyük ictimai təhlükə törətməyən və az ağır növlər təşkil edib. Qəsdən sağlamlığa az ağır zərərvurma, mülkiyyət əleyhinə olan cinayətlər, o cümlədən oğurluq, soyğunçuluq, quldurluq, dələduzluq, avtonəqliyyat vasitələrinin qaçırılması kimi cinayətlər azalıb. Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri və istintaq hərəkətləri ilə cinayətlərin açılması da yaxşılaşıb. Bu göstəricilər ümumilikdə ölkədəki kriminogen durumun vəziyyətini əks etdirən müsbət məqamlardır. Bununla yanaşı, polis aidiyyəti dövlət orqanları ilə qarşılıqlı əlaqədə ölkəmizdə keçirilən beynəlxalq əhəmiyyətli bütün kütləvi tədbirlərdə ictimai qaydanı və təhlükəsizliyi yüksək səviyyədə təmin edir.

Ölkənin hüquq mühafizə orqanlarının səylərinin vahid məqsəd üzərində cəmləşməsi sayəsində cinayətkarlığa qarşı mübarizədə, fundamental insan haqlarının qorunması işində əhəmiyyətli nəticələrə nail olunub. Xidməti fəaliyyətin bütün istiqamətlərində əldə edilmiş irəliləyişləri daha da inkişaf etdirmək Azərbaycan polisi qarşısında duran əsas məqsədlərdəndir.

### Uğurlu islahatlar, təkmil kadr hazırlığı

Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr müasir tariximizə dinamik inkişaf, dərin islahatlar, o cümlədən polisin xidmətinin təkmilləşdirilməsi üzrə davamlı fəaliyyət mərhələsi kimi daxil olub. Bu gün daxili işlər orqanları müasir maddi-texniki bazası, infrastrukturu və qabaqcıl texnologiyası olan mobil dövlət qurumudur.

Bu strukturda islahatlar, kadr hazırlığının artırılması və modernləşdirilməsi, fəaliyyətin təkmilləşdirilməsi prosesi hazırda sistemli şəkildə bir-birini tamamlayan vahid istiqamətlər üzrə həyata keçirilir.

Müasir dövrün tələblərinə uyğun kadrların hazırlığı xüsusi diqqət yetirilən məsələlərdəndir. Şəxsi heyətin peşə hazırlığının zamanın yeni təhdid və çağırışlarına cavab verən səviyyəyə yüksəldilməsi üçün ardıcıl iş aparılır. Ölkəmizdə və xarici dövlətlərdə keçirilən treninqlərə, forumlara, təcrübə mübadiləsinə və digər tədbirlərə minlərlə əməkdaş cəlb olunur. Polisin əsas vəzifələrinin icrasının təşkilində, o cümlədən transmilli mütəşəkkil cinayətkarlıqla mübarizədə - BMT, Avropa İttifaqı, NATO, MDB kimi nüfuzlu təşkilatların və onlarla ölkənin aidiyyəti qurumları ilə səmərəli əməkdaşlıq münasibətləri öz bəhrəsini verir.

Daxili işlər orqanları vətəndaşla sıx təmasda olan strukturlardandır. Fəaliyyətləri daim vətəndaşın gözü önündədir, eyni zamanda vətəndaş hansısa bir çətinliklə üzləşəndə dərhal müraciət edəcəyi ilk orqan polisdir. Bu baxımdan əməkdaşlardan peşəkarlıq, məsuliyyətlə yanaşı, sağlam, səmimi ünsiyyət vərdişləri tələb olunur.

Prezident İlham Əliyevin hər bir ölkənin gələcəyinin, inkişafının geniş intellektual səviyyəli, müasir texnologiyaların sirlərinə bələd olan, vətənpərvər, milli-mənəvi dəyərlərə, dövlətçiliyə sadiq gənclərdən asılı olması barədə fikirləri daxili işlər orqanlarında xidmətə qəbul prosesində əsas meyardır. Şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirilən qəbullarda biliyi və bacarıqları, dünyagörüşləri qaneedici səviyyədə olan, polis adını və şərəfini uca tutacaq gənclər şəxsi heyətin sıralarına qəbul edilir. Eləcə də, Vətən savaşında iştirak etmiş və daxili işlər orqanlarında fəaliyyət göstərmək arzusunda olan gənclərə lazımi şərait yaradılır. Fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü müvafiq tələblərə cavab verdiyi təqdirdə onlar xidmətə qəbul edilirlər.

Nazirliyin təhsil müəssisələrində - Polis Akademiyasında, A.Heydərov adına Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan Məktəbdə və Daxili Qoşunların Ali Hərbi Məktəbində müasir düşüncəsi, vətənpərvərliyi və digər mənəvi keyfiyyətləri ilə seçilən, yeni çağırışlara adekvat cavab vermək bacarığına malik yeni nəsil yetişir. Hazırkı internet əsrində, rəqəmsal dünyada yüksək bilik və bacarıq olmadan keçinməyin mümkünsüzlüyünü nəzərə alaraq təhsil müəssisələrində kursantların intellektual səviyyəsinin yüksəldilməsinə, xüsusi nəzəri bilik, fiziki və psixoloji hazırlığına önəm verilir, onlara milli ruh, vətənpərvərlik, humanizm, zabit qüruru kimi mənəvi dəyərlər aşılanır.

### Dövlətçiliyin və müstəqilliyin etibarlı müdafiəçiləri

Mütəmadi olaraq fəaliyyətin bütün istiqamətləri üzrə monitorinqlər, araşdırmalar aparılır, əməliyyat-xidməti fəaliyyətdə əldə edilmiş müsbət nəticələrlə bərabər, ayrı-ayrı orqanlarda ümumi işə mənfi təsir göstərən hallar müəyyənləşdirilir, onların hərtərəfli təhlili aparılır, aradan qaldırılması yolları göstərilir. Eyni zamanda polisin şərəfli adına xələl gətirəcək, cəmiyyətin öz polisinə inamını sarsıdacaq hər hansı neqativ hala qarşı da kifayət qədər prinsipiallıq nümayiş etdirilir.

Daxili İşlər Nazirliyi mümkün olan bütün vasitələrlə - rəsmi mənbələrdən sosial şəbəkələrə qədər bütün platformalarda vətəndaşlarla sıx, operativ ünsiyyət qurub. Hər bir müraciət, təklif, şikayət araşdırılır, dəqiqləşdirilir, həlli üçün konkret iş görülür. Ən əsası isə bu proses qısa müddətdə həyata keçirilir.

Elektron xidmətlər, veb-saytlar, qaynar xətlər, "ASAN xidmət" mərkəzlərində fəaliyyət və digər bu kimi tədbirlər başlıca vəzifələrdən olan vətəndaş məmnunluğunun təmin edilməsinə yönəlib. Sevindiricidir ki, fəaliyyətlə bağlı vətəndaş məmnunluğunun davamlı olaraq artması daxili işlər orqanlarında arxayınçılıq yaratmır. Cənab Prezidentin müəyyənləşdirdiyi fəaliyyət üslubuna uyğun olaraq, onlar xalqın xidmətçisi funksiyasını fasiləsiz həyata keçirirlər.

Nazirlik sistemində maddi texniki təminatın, xidmət şəraitinin yaxşılaşdırılması, fəaliyyətin təkmilləşdirilməsi, sosial müdafiə işinin gücləndirilməsi istiqamətində Prezident tərəfindən davamlı tədbirlər həyata keçirilir. Bu ali dəstək, qayğı, himayə daxili işlər orqanlarının əməkdaşlarını daha da ruhlandırır, onları vətənə, xalqa sədaqət andı ətrafında sıx səfərbər edir. Bütövlükdə, polis və Daxili Qoşunlar milli maraqların, sabitliyin və asayişin keşiyində mətinliklə dayanır, insan hüquq və azadlıqlarının müdafiəsi üçün uğurlu fəaliyyət ortaya qoyurlar.

Prezident İlham Əliyevin dövlətçilik və müstəqillik kursunun sadiq icraçısı olan Azərbaycan polisi əminik ki, ötən 103 ildə olduğu kimi, bundan sonra da asayişin, daxili təhlükəsizliyin keşiyində əzm və qətiyyətlə dayanacaq, respublikamızın daha da çiçəklənməsi və qüdrətlənməsi naminə üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gələcəkdir.

***Həm də Vətənə, xalqa, Ulu Öndərin irsinə, möhtərəm Prezidentin kursuna, sədaqət andına daim sadiq qalacaqdır. Müzəffər Sərkərdəmizin qazandığı Zəfərin müstəqilliyimiz kimi əbədi olması naminə daxili işlər orqanlarının hər bir əməkdaşı qətiyyətlə, fədakarlıqla xidmət edəcəkdir.***

*İxtiyar Hüseynli,*
*"Azərbaycan"*

# AZƏRBAYCAN POLİSİNİN FƏALİYYƏTİ DÖVLƏTƏ VƏ XALQA SƏDAQƏT NÜMUNƏSİDİR



*Əvvəli 2-ci səhifədə.*

Polis və Daxili Qoşunların milli maraqların, sabitliyin və asayişin keşiyində mətinliklə dayandığını, insan hüquq və azadlıqlarının müdafiəsi üçün böyük bir fəaliyyət ortaya qoyduğunu, bunun bariz nümunələrindən birinin də, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında möhtəşəm qələbəmizlə nəticələnmiş Vətən müharibəsi günlərində şəxsi heyətin ölkədə hərbi vəziyyət rejimini etibarlı təmin etməsini, bu gün isə işğaldan azad olunmuş ərazilərdə öz şərəfli xidmətini böyük əzm və peşəkarlıqla davam etdirməsini xüsusilə qeyd edən nazir V.Eyvazov ölkə başçısının bu peşə bayramı ərəfəsində 26 əməkdaşın dövlət mükafatları ilə təltif edildiyini, 4 rəhbər vəzifəli əməkdaşa ali xüsusi rütbə verildiyini xatırladaraq, bunun cənab Prezidentin şəxsi heyətə göstərdiyi ali diqqət və qayğının növbəti əyani ifadəsi olduğunu bildirib, eyni zamanda, daxili işlər orqanlarının və Daxili Qoşunların asayişin və təhlükəsizliyin təmini üzrə fəaliyyətini dövlət başçısının yüksək qiymətləndirdiyini, eləcə də respublika ictimaiyyəti tərəfindən təqdir olunduğunu məmnunluq hissi ilə vurğulayıb.

Daha sonra cənab V.Eyvazov qazanılan uğurlarda Azərbaycan polisinin müasir dünyagörüşlü yeni nəslini yetirən Polis Akademiyasının xüsusi rolunu qeyd edərək məzunları təhsili başa vurmaları münasibətilə təbrik edib.

Daxili işlər naziri Vilayət Eyvazov təntənəli mərasim iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevi əmin edib ki, polis bundan sonra da asayişin və daxili təhlükəsizliyin qorunması işinə layiqli töhfələr verəcək, qanunla müəyyən edilmiş vəzifələri və qarşıya qoyulmuş tapşırıqları tam yerinə yetirəcəkdir.

Nazir eyni zamanda xidməti vəzifələrin icrasında daxili işlər orqanlarına hər zaman yardımçı olan, polisin peşə bayramının sevincini bölüşən vətəndaşlara, daxili işlər orqanlarının veteranlarına, dövlət qurumlarının rəhbərlərinə və əməkdaşlarına, kütləvi informasiya vasitələrinin nümayəndələrinə təşəkkürünü bildirib.

Polis Akademiyasının rəisi, polis polkovniki Canpolad Daanov ali polis təhsil ocağında təlim-tədris prosesinin təkmilləşdirilməsi və maddi-texniki bazanın daha da möhkəmləndirilməsi istiqamətində görülən işlər barədə məruzə ilə çıxış edib.

O, daxili işlər naziri V.Eyvazovu əmin edib ki, Akademiyanın kollektivi təlim-tədris prosesinin daha da təkmilləşdirilməsi, müasir dövrün çağırış və təhdidlərinə cavab verən ixtisaslı kadr hazırlığının həyata keçirilməsi barədə qarşıya qoyulan tələblərin, əmr və göstərişlərin tam və yüksək səviyyədə yerinə yetirilməsi üçün daim əzmlə çalışacaq, bilik və bacarıqlarını əsirgəməyəcəkdir.

Tədbirin sonunda daxili işlər naziri Polis Akademiyasını fərqlənmə ilə bitirmiş 4 məzuna diplom və "polis baş leytenantı" xüsusi rütbələrinin paqonlarını təqdim edib.

Daha sonra döyüş bayrağı dördüncü kurs müdavimlərinə təhvil verilib. Müdavimlər "Azərbaycan Polisi" marşını ifa ediblər.

Sonda şəxsi heyət mətin addımlarla tribunanın qarşısından keçib.

*2 iyul 2021-ci il*

# Onlar milli qürurumuzdur

## Silahdaşlarının xatirəsini yaşadan Milli Qəhrəmanlarımız

Tarixi şərait elə gətirir ki, vətən, millət qarşısında taleyüklü məsələləri həll etmək üçün cəsarətli insanlara ehtiyac yaranır. Xalqımız üçün tarixin sınaq mərhələsi müstəqilliyimizin ilk illərinə təsadüf etdi və adlarını qəhrəmanlıq salnaməmizə yazanların sayəsində təlatümlü illərdən üzüağ çıxdıq. Bu dövrdə Azərbaycan Polisi də mübarizlik və fədakarlıq nümunəsi sərgilədi.

O zamanlarda Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü ilk olaraq rəşadətlə dəf edən nizami qüvvə məhz daxili işlər orqanları oldu. Bu döyüşlərdə neçə-neçə polis əməkdaşı və hərbi qulluqçu şəhidlik zirvəsinə ucaldı, yaralandı. Göstərdikləri şücaət və igidliklərə görə 67 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü.

İndi bizimlə bir sırada olan Milli Qəhrəmanlarımız müxtəlif vəzifələrdə çalışır, Vətən qarşısında öz borclarını yenə də şərəflə yerinə yetirirlər. Birinci Qarabağ müharibəsində göstərdikləri igidliklərə görə “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüş Mədət Quliyev, Mövsüm Məmmədov, Sahil Məmmədov, Mirzə Quliyev,





Bəxtiyar Allahverdiyev və Fariz Mədətov bu gün də millət və dövlətçilik naminə xidmətlərini davam etdirirlər. Ərazi bütövlüyümüz uğrunda döyüşlərdə, eləcə də sabitliyin təmin edilməsində, cinayətkarlıqla qətiyyətli mübarizədə şücaət göstərmiş bu qəhrəmanlarımızın həyatı, keçdikləri böyük və şərəfli döyüş yolları, göstərdikləri igidliklərlə daima qürur duyuruq.

Onlar öz qəhrəmanlıqları ilə adlarını tarixə yazmış sələflərinin - Azərbaycan daxili işlər orqanları əməkdaşlarının, Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş soydaşlarımızın qəhrəmanlıq yolunun davamçılarıdır. Vətən və xalq uğrunda mübarizə aparmış Milli Qəhrəmanlarımızın hər birinin şəxsi şücaəti bu gün sıramızda mətin addımlarla addımlayan, dövlətçiliyimizin dayaqlarının möhkəmləndirilməsi üçün gecəli-gündüzlü xidmət edən gənc nəslə örnəkdir.

İkinci Qarabağ müharibəsində ön cəbhədə vuruşan DİN Daxili Qoşunlarının hərbi qulluqçuları, arxa cəbhədə isə ictimai asayişi qoruyan polis əməkdaşlarının fədakarlıqları da milli qəhrəmanlarımızın döyüş yolunun davamı oldu.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# ƏLAÇI MƏZUNLARIMIZ

## Polis Akademiyası onlar üçün həm də həyat məktəbi oldu

Bu il yaranmasının 100-cü ildönümünü qeyd etməyə hazırlaşdığımız DİN-in Polis Akademiyası tarixin ən çətin sınaqları ilə üzbəüz qalsa da, varlığını qoruyub saxlayıb. Ötən əsrin 90-cı illərində torpaqlarımıza düşmən təcavüzü başlayanda Akademiyanın kursantları polis andını səngərlərdə içdilər. Ölümlərdən sıyrılan həmkarlarımız özlərindən sonra elə bir qəhrəmanlıq ənənəsi qoydular ki, bu gün də davam edir, nəsildən nəslə ötürülür. Buranın məzunları, kiursantları həyata, mübaliğəsiz deyə bilərik ki, həm də həyat məktəbini bitirərək qədəm qoyduqlarını və bunun onlar üçün hər gəncin bəxtinə düşməyən, məsuliyyəti də özü qədər böyük fürsətlər yaratdığının fərqindədirlər.



Akademiyanın bu ilin əlaçı məzunları ilə söhbət əsnasında bunu açıq-aydın duyduq, hiss etdik. Onları “qızıl paqonlu” kursantlar kimi də təqdim edə bilərik, çünki dərslərdəki əziyyətlərinin qarşılığı olaraq Akademiyanı fərqlənmə diplomu və “baş leytenant” rütbəsilə bitirirlər.

Müsahibimiz Bəxtiyar Əlizadə deyir ki, ailəsində yekdil fikir belə olub ki, o, hüquq təhsili alsın. Özünün polis olmaq niyyətini də bu arzu ilə uzlaşdırıb, qəbul imtahanında 670 bal toplayaraq, Polis Akademiyasına qəbul olub: “Uniforma daşımağın məsuliyyətini elə ilk andan hiss etməyə başladım. Bunun, sadəcə, ətrafdakı insanların libasından fərqli geyim forması olmadığını burada peşənin sirrlərini öyrəndikcə, bir daha əmin oldum”.

Hər bir kursantın yüksək təhsil alması üçün Akademiyada bütün şəraitin mövcud olduğunu söyləyən Bəxtiyar “qızıl paqonlara” sahib olmaqdan ötrü təhsil ocağının bu imkanlardan yararlanıb, oxumaq üçün gecəsini gündüzünə qatıb. O, bu uğurunun müəllim və komandir heyətinin də zəhməti bahasına ərsəyə gəldiyini xüsusilə vurğuladı.

Ata məsləyini davam etdirmək istəyilə Polis Akademiyasını seçən və qəbul imtahanında 624 bal toplayan Tahir Həsənovun müəllimi də atası olub. Onun təhsilə özünəməxsus yanaşma tərzi, düşüncəsi var. “Bizim burada təhsilə münasibətimiz digər ali təhsil müəssisələrinin tələbələrinin təhsilə münasibətilə eyni deyil, çünki burada oxuyanlar üçün əmək stajı hesablanır. Deməli, vəzifəmiz var və bu vəzifə dərs oxumaqdan ibarətdir”,- deyən “qızıl paqonlu” məzunumuz, Robin Şermanın məşhur aforizmini xatırladı: “O, deyirdi ki, xoşbəxtlik gəldiyin yer deyil, getdiyin yoldur. Akademiya həyatı da bizim üçün belə bir yol oldu”.

Şəxsiyyət kimi formalaşmalarının mühüm bir mərhələsinin məhz Polis Akademiyasında başa çatdığını və hazırda həyatlarının çox vacib dövrünə - təhsildən karyeraya keçmələrinin həyəcanını yaşadıqlarını deyən T.Həsənov polis əməkdaşı olaraq onları qarşıda gözləyən məsuliyyətin öhdəsindən gələcəklərinə əmin olduğunu bildirdi.

Akademiyaya qəbul imtahanlarında 690 bal toplamaqla Prezident təqaüdünə layiq görülən Rövşən Hüseynov əvvəlki kursların əlaçıları ilə apardıqları bilik mübadiləsinin də onların yoluna işıq tutduğunu deyir. “Akademiyanı da fərqlənmə diplomu ilə bitirmək mənim əsas hədəflərimdən biri idi. Düşünürəm ki, öz arzularımı rellaşdırmaq üçün müəllim-professor heyətinin bizə öyrətdiklərini mənimsəyə bildik və bunun qarşılığı da təhsilimizi uğurla başa vurmağımız oldu”.

Akademiyanın maddi-texniki təminat baxımından ölkəmizin ən yaxşı təhsil müəssisələrindən biri olduğunu və bunun sayəsində polis peşəsinin nəzəri əsaslarını mükəmməl şəkildə mənimsədiklərini söyləyən gənc zabit R.Hüseynov cinayətkarlıqla mübarizəyə hazır olduqlarını vurğuladı.

*"Polis"*

# Vətəndaş cəmiyyətilə uğurlu əməkdaşlıq

**Daxili İşlər Nazirliyi ictimai birliklər və qeyri-hökumət təşkilatları, ümumilikdə, vətəndaş cəmiyyətilə uğurlu əməkdaşlıq quran qurumlardandır.**

Ümidli Gələcək Sosial Təşəbbüslər İctimai Birliyi artıq 14 ildir ki, Daxili İşlər Nazirliyi ilə birgə bir çox uğurlu layihələr həyata keçirir. Belə ki, Nazirliklə rəsmi əməkdaşlıq əsasında Azərbaycanda ilk olaraq Yuvenal Ədliyyə proqramı icrasına başlanmış və nəticədə Uşaq Hüquqları Klinikası və Cinayət törətmiş uşaqlar üçün Sosial Reabilitasiya Mərkəzləri yaradılmışdır. Yeri gəlmişkən, Polis Akademiyası ilə əməkdaşlığın nəticəsində İctimai Birliyimiz tərəfindən Uşaq Hüquqları, Yuvenal Ədliyyəyə dair mövzuların tədrisi üzrə təlimatlar və proqramlar hazırlanmışdır.

Bu müddət ərzində Daxili İşlər Nazirliyi ilə əməkdaşlığın davamı olaraq, Polis İdarələrində Uşaq Polis Otaqları yaradılmış, cinayət və hüquq pozuntusu törətmiş, o cümlədən zorakılığın qurbanı olan uşaqların hüquqlarının müdafiə olunmasını təmin etmək üçün mühüm əhəmiyyətli işlər həyata keçirilir.

Bununla yanaşı, Daxili İşlər Nazirliyinin təşəbbüsü ilə Bakı şəhər Baş Polis İdarəsində və İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsində təşkilatın sosial xidmət mərkəzi olan “Azərbaycan Uşaq Qaynar Xətt xidməti” haqqında maarifləndirici materiallar bütün Polis İdarələrinin inzibati binalarında, həmçinin İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin internet səhifəsində yerləşdirilmişdir. Bu da daxili işlər orqanlarının yetkinlik yaşına çatmayanların hüquqlarının qorunmasını diqqətdə saxlamasının bariz nümunəsidir.

**Hər zaman güvəncini, dəstəyini hiss etdiyimiz Azərbaycan Polisi yaranmasının 103-cü ildönümünü qeyd edir. Birbaşa vəzifəsi insan hüquq və azadlıqlarını, asayişi, sabitliyi qorumaq olan, ayıq-sayıq xidmətilə Vətənimizin inkişafına öz töhfəsini verən, hər birimizin ümid qapısına çevrilən Cümhuriyyət yaşıdı Polisimizə getdiyi bu çətin lakin şərəfli yolda uğurlar arzulayır, bayramınız mübarək olsun deyirik.**

# Asayişin zərif keşikçiləri

## Qadın əməkdaşlarımız əmin-amanlığın qorunmasına əvəzsiz töhfə verirlər

**Ölkəmizdə sabitliyin qorunmasında əldə etdiyimiz nailiyyətlərdə xanım həmkarlarımızın böyük əməyi var. Bu gün onlar yalnız sənədləşmə-kargüzarlıq işlərində deyil, istintaq və təhqiqat orqanlarında cinayətkarlığa qarşı mübarizədə birbaşa iştirak edirlər. Hətta, xüsusi fiziki güc, dayanıqlıq və iradə tələb edən post-patrul fəaliyyəti kimi çətin bayır xidmətində belə asayişin keşiyini çəkən zərif həmkarlarımız əmin-amanlığın qorunmasına əvəzsiz töhfə verirlər.**



Son illərdə bir-birinin ardınca ev sahibliyi etdiyimiz mötəbər beynəlxalq tədbirlərdə təhlükəsizliyin təmin edilməsinə onlar da cəlb edilirlər. Bu il də “Formula-1” Qran-pri yarışları və futbol üzrə Avropa çempionatının Bakıda keçirilən görüşlərində öz xidməti vəzifələrini peşəkarlıqla yerinə yetirdiklərini növbəti dəfə təsdiq etdilər.

**DİN-in Səfərbərlik işləri və mülki müdafiə idarəsi katibliyinin rəisi, polis polkovnik-leytenantı Nailə Teliyeva** 5 ildir beynəlxalq tədbirlər zamanı təhlükəsizliyin qorunmasına cəlb edilən qadın polislərin qrup rəhbəridir. Bu barədə “Polis”in suallarını cavablandıran həmkarımız deyir ki, hər zaman nümunəvi xidmətlərilə yadda qalan xanım əməkdaşlar, hətta, əvvəlki illərdə yarış keçirilən əraziyə qadağan olunmuş əşya keçirməyə cəhd edən, qaydaları pozan tamaşaçıları aşkar etməkdə kişi həmkarlarından geri qalmayıblar.

Gücləndirilmiş təhlükəsizlik tədbirləri sayəsində bu il keçirilən tədbirlərdə heç bir insident qeydə alınmayıb. Son iki tədbirdə asayişin qorunmasına 163 qadın polis cəlb olunub ki, onlar Bakı Polis Qarnizonun, Əlahiddə Çevik Polis Alayının, Daxili Qoşunların xanım əməkdaşları arasından seçiliblər. Əsasən rus və ingilis dillərini bilən həmkarlarımız yarışların keçirildiyi ərazilərin giriş-çıxışlarında, piyada və nəqliyyat postlarında xidmət aparıblar.

N.Teliyevanın sözlərinə görə, yarışların keçirildiyi yerlərdə səhər təlimatından sonra xanımların xidməti başlayıb. Daha sonra qrup rəhbəri olaraq, o, tədbirin sonunadək postlara təhkim olunmuş əməkdaşların növbəlilik əsasında xidmətlərinin təşkil edilməsi, təhlükəsizlik qaydalarına nəzarət olunması kimi prosedurları icra edib.

Yeri gəlmişkən, mötəbər tədbirlərdə xanım polislərin xidmətə cəlb edilməsindən beynəlxalq təcrübədə də geniş istifadə edilir. Çünki müasir texniki təhlükəsizlik sistemlərinin tətbiqilə yanaşı, qadın tamaşaçıların yoxlanılmasında fiziki təmas qaçılmaz olur və buna görə də belə tədbirlərdə xanım polislərə hər zaman ehtiyac yaranır. Azərbaycan da artıq təhlükəsizliyin təmin edilməsində zəngin təcrübə qazanmış xanım polislərilə dünya ölkələri arasında sayılıb-seçilir.

# Ağ xalatlı xilaskarlarımız

## DİN-in Hospitalı sağlamlığımızın keşiyindədir



DİN Tibb İdarəsinin A.Heydərov adına Respublika Hospitalı polis əməkdaşlarının, onların ailə üzvlərinin, təqaüdçülərin, mülki işçilərin sağlamlığını qoruyan müasir tibb müəssisələrindən biri sayılır. Zəngin maddi-texniki bazaya malik olan hospitalın tibb heyəti hər bir əməkdaşın sağlamlığının keşiyini çəkir. Qısa və obrazlı desək, asayişin etibarlı təmin olunması, əmin-amanlıq, vətəndaşın can güvənliyi polisə, polisin səhhəti də hospitalda çalışan ağ xalatlı xilaskarlarımıza əmanətdir.

Hospital 1964-cü ildən şəfa ocağı kimi fəaliyyət göstərir. Birinci Qarabağ müharibəsində yaralanan əməkdaşlarımızın, hərbi qulluqçuların sağalıb yenidən cəbhəyə qayıtmasında bu şəfa ocağının ağ xalatlı xilaskarlarının böyük rolu olub. Hətta ön xətdə qurulan səhra hospitallarında onların necə böyük fədakarlıqlar göstərdikləri də yaddaşlardan silinməyib. Bütün dünyanı sınağa çəkən pandemiyanın ötənilki pik mərhələsi “paqonlu” həkimlərimiz üçün növbəti gərgin dövr kimi yadda qalacaq – onlar virusa yoluxmuş əməkdaşlarımızın həyatı üçün, sözün əsl mənasında, ölüm-qalım mübarizəsi apardılar. Xüsusən, reanimasiyalarda xəstələrə yardım edərkən, virusla həddindən artıq “yüklənmiş” və buna görə də xəstəliyi çox ağır keçirmiş reanimatoloqlar öz həyatlarını həmkarlarımızın həyatı uğrunda təhlükəyə atmışdılar.







**Hospitalın rəis müavini, tibb xidməti baş leytenantı Namik Bədirxanlı** deyir ki, sanitar-epidemioloji vəziyyətlə əlaqədar olaraq ötən il tibb müəssisəsi iki dəfə xüsusi rejimə keçib və yalnız COVID-19 infeksiyasına yoluxmuş əməkdaşlara xidmət göstərilib: “Birinci dəfə iyunun 25-dən sentyabrın 12-dək 178 xəstənin stasionar müalicəsi aparılmış, onlarının əksəriyyəti reanimasiyaya yerləşdirilmişdi. Sonra epidemioloji vəziyyət bir qədər səngidi və hospital normal iş rejiminə keçdi, qeyri-COVID xəstələrini də qəbul etməyə başladıq. Lakin qısa müddətdən sonra yenidən xüsusi rejimə keçəsi olduq və bu ilin yanvarın 15-dək daha 82 xəstəyə stasionar tibbi xidmət göstərildi”.

Hospitalda kliniki gedişatı daha ağır olanlar stasionar şəraitdə müalicə olunub. Yüngül simptomlar müşahidə olunan xəstələrin müalicəsi isə ambulator şəraitdə, müəssisənin infeksionist və terapevtlərinin nəzarəti altında həyata keçirilib.

Hazırda hospitalda COVID xəstəsi olmasa da, virusun aşkar edilməsi üçün müayinələr davam etdirilir. Yoluxma şübhəsi ilə müraciət edənlərdə virus aşkarlanarsa, kliniki vəziyyətə uyğun olaraq, Səhiyyə Nazirliyinin balansında olan yoluxucu xəstələr üçün nəzərdə tutulan müəssisələrdə müalicəyə göndərilirlər.

Rəis müavininin sözlərinə görə, əgər ehtiyac olarsa, yenə də pandemiya xəstəxanası kimi çalışmağa hazırdırlar. Bunun üçün hospital virusun diaqnostikası, habelə bu xəstəliyin müalicəsində zəruri olan Avropa istehsalı laborator testlər, tibbi avadanlıq, ləvazimatlar, qoruyucu vasitələr və təcrübəli tibbi heyətə malikdir.

Həkimlər hesab edir ki, COVID-19-dan qorunmaq üçün ilk növbədə peyvənd olunmaq lazımdır. Bu, artıq zərurətə çevrilib. Çünki təcrübə göstərir ki, peyvənd olunanlar virusa yoluxsalar da, xəstəliyi ağır keçirmirlər. Yeri gəlmişkən, vaksinlərin ölümləri və yoluxmaları necə kəskin azaltdığına dair ABŞ-da yeni araşdırmanın nəticəsi açıqlanıb. Araşdırmaya görə, ölənlərin 99 faizdən çoxu məhz vaksin vurdurmayanlardır.

“Bizdə indiyədək minlərlə əməkdaş peyvənd olunub və əgər onlarda hansa ağır fəsad olardısa, mütləq bizim hospitala müraciət edərdilər. Ancaq belə bir müraciət daxil olmayıb. Kiçik yan təsirlər – başağrısı, ürək bulanma, yorğunluq kimi hallar müşahidə oluna bilər, bu da normaldır. Çünki orqanizm peyvəndə reaksiya verir. Söhbət ciddi fəsaddan gedir və belə hallar müşahidə olunmur”, - deyən müsahibimiz də vaksinasiyanın önəminə xüsusi diqqət çəkir.

DİN-in Hospitalının tibb ailəsi İkinci Qarabağ müharibəsində yaralı hərbi qulluqçuların müayinə və müalicəsində də yaxından iştirak ediblər. “Dəmir Yumruq” hərbi əməliyyatına cəlb olunan Daxili Qoşunların xüsusi təyinatlı qüvvələrinin hərbçilərinin, müharibədən sonra isə qazilərin cərrahi əməliyyatları DQ Hospitalında çalışan tibb heyətilə birlikdə həyata keçirilib. Hər iki hospital eyni quruma - Daxili İşlər Nazirliyinə mənsub olsa da, hərəsinin öz spesifikası var və o gərgin dövrdə qarşılıqlı əməkdaşlıq etməklə xilaskarlıq missiyalarını birgə yerinə yetiriblər.

Belə ki, DİN Tibb İdarəsinin A.Heydərov adına Hospitalı pandemiyaya görə COVID xəstələrini qəbul etdiyi dövrlərdə virusa yoluxan hərbçilərin də müalicəsini öz üzərinə götürüb. Daxili Qoşunların Hospitalı isə xidmət zamanı xəsarət alan, xəstələnən, COVID olmayan polis əməkdaşlarını qəbul edib.

Hazırda 320 çarpayı fondu ilə fəaliyyət göstərən hospitalın imkanlarından mülki vətəndaşlar da istifadə edirlər. Onların müayinə və müalicəsi müvafiq əmrlə tənzimlənir.

Normativə uyğun olaraq polis əməkdaşına, onun həyat yoldaşına və 18 yaşına qədər uşaqlarına tibbi xidmət tam pulsuzdur. DİN təqaüdçülərinə, Milli Qəhrəman və şəhid ailələrinə də ödənişsiz əsaslarla tibbi xidmət göstərilir. İstənilən vətəndaş laborator müayinələrdən, qanın ümumi analizlərindən tutmuş bio-kimyəvi, hormonal analizlərin böyük bir çeşidinə qədər, kompüter tomoqrafiya, maqnit rezonans tomoqrafiya, müasir rentgen, ultra səs, exokardioqrafiya və digər mürəkkəb müayinə-müalicə prosedurlarından keçə bilər.

*Rəşad Mehtiyev*

# Uşaqların qayğıkeş polisi

## Polis polkovnik-leytenantı Kəmalə Ələkbərova: “Polis mundiri mənim üçün məsuliyyət və qürur təcəssümüdür”




**Ötən günlərdə yeniyetmə bir qızı sığınacağa yerləşdirmək üçün yenə yorulmadan bir-bir təşkilatların qapısını döyürdü. Valideynləri, qohum-əqrabaları uşaqdan imtina etmişdi deyə, küçələrdə qalmışdı qızcığaz. Çox uğursuz başlamış həyatın dibindən onu sehirli bir əl, daha doğrusu, polis zabiti Kəmalə xanım çıxaracaqdı.**

Polis mundiri Kəmalə Ələkbərovanı hər nə qədər uzaqdan sərt göstərsə də, neçə-neçə uşağın həyatını qorumaq, bəlkə də yenidən qurmaq üçün çırpınan ana ürəyi hər zaman onun həlim kimliyini ifadə edib.

**Polis polkovnik-leytenantı Kəmalə Ələkbərova Bakı şəhər BPİ İctimai Təhlükəsizlik İdarəsinin Yetkinlik Yaşına Çatmayanlarla Profilaktik İşin Təşkili Bölməsinin baş inspektorudur.** O, 14 ildir uşaq hüquqlarını qorumaq missiyasını həyata keçirən, yeniyetmələri zərərli vərdişlərdən çəkindirmək məqsədilə profilaktik söhbətlər aparan, onların hüquq və azadlıqlarının müdafiəçisi olan polisin zərif gücünü təmsil edir.

Çox gənc ikən polis formasını geyinib. Deyir ki, azyaşlılarla iş üzrə qadın polislərə ehtiyac yarananda xidmət yerini dəyişib. Azyaşlılar onlarla həmsöhbət olan şəxsin qadın olduğunu görəndə daha səmimi olurlar, güvənir, etibar edərlər. Buna görə də bu xidmət məsuliyyətli, həm də şərəflidir: “Qadın olmaq bu işin məsuliyyətini azaltmır. Uşaqlara gözəl dünya, gözəl gələcək miras qoymaq istəyiriksə, sağlam, intellektual, savadlı uşaqlar yetişdirsək, bütün problemləri həll etmiş olarıq. Polis əməkdaşı olaraq biz də bu amal üçün çalışırıq”.

Onun fikrincə, daxili işlər orqanlarında xanım polislərin olması ümumi işin xeyrinədir.

“Bəzən polis olduğumu bilən qadınlar hətta başqa məsələlərlə bağlı da mənə müraciət edirlər. Hiss edirəm ki, həm də qadın olduğuma görə güvənirlər”,-deyən K.Ələkbərova üçün polis mundiri həm məsuliyyət, həm də qürur təcəssümüdür.

*R.Mehtiyev*

# Sizi unutmadıq

## *Davamçılarınız olmaqla qürur duyuruq*



Cinayətkarlığa qarşı peşəkar mübarizədə əldə etdikləri nəzəri və praktiki biliklərlə, illər boyu qazandıqları zəngin təcrübə ilə veteranlarımız daim yanımızdadırlar. Yaşlarının bu çağında da əlləri işdən-gücdən soyumayan veteranlar polis və vətəndaş münasibətlərinin daha da möhkəmləndirilməsində, ictimai təhlükəsizliyin təminində, cinayətlərin profilaktikası məqsədi ilə vaxtilə çalışdıqları ərazi polis orqanlarında və nizami hissələrdə gənc əməkdaşlara əməli köməklik göstərilməsində bilik və bacarıqlarını əsirgəmirlər. Cinayət faktlarının açılmasında, axtarışda olanların tapılmasında onların köməyi danılmazdır. Polis veteranları yeniyetmə və gənclər arasında antinarkotik təbliğatın güclənməsi, dini radikalizmə qarşı mübarizə, azyaşlılar arasında erkən nikah və intihar hallarının qarşısının alınması məqsədilə polis əməkdaşları ilə birgə vətəndaşlarla görüşlər keçirir, hüquqi mövzularda maarifləndirmə işləri apararaq, gənc nəslin sağlam ruhda yetişməsi üçün böyük səy göstərirlər.

Ötən il ərzində veteranların köməyi ilə 5407 cinayətin açılması təmin edilib. Bu da işin hamısı deyil, bu ilin birinci rübü ərzində 1284 cinayət faktının açılmasında veteranlarımız yaxından iştirak ediblər.

Müstəqillik illərində xalqımızın ümummilli lideri tərəfindən həyata keçirilən, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam və inkişaf etdirilən dövlətçilik strategiyasının veteranlarımız tərəfindən birmənalı olaraq, dəstəklənməsi, onların ölkəmizin, daxili işlər orqanlarının ictimai həyatında inamla və fəal şəkildə iştirak etmələri, zəngin təcrübələrini gənclərlə bölüşmələri vətənpərvərliyin və dövlətçiliyə sadiqliyin bariz nümunəsidir.

Veteranlarımızın mənalı həyat yolu, zəngin təcrübəsinə nəzər saldıqda görünür ki, həqiqətən də ötən günlər-itən günlər deyilmiş. Mənalı həyatının qırx ilə yaxın dövrünü daxili işlər orqanlarında xidmətə həsr edərək şərəfli bir yol keçən, dəyərli veteranımız polis general-mayoru Kamil Məmmədovun, polis polkovniki Müseyib İlyasovun və digərlərinin ömür yolu bir məktəbdir.

Qüsursuz xidmətləri, qanunçuluğun və hüquq qaydalarının təmin olunmasında çoxillik səmərəli fəaliyyətləri ilə polisin tarixində iz qoyan, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında, xidməti vəzifələrinə vicdanla, andlarına sədaqətlə yetişmələrində veteranlarımızın, bu tarix yaşıdlarının rolu əvəzsizdir. Ona görə bayram sevincindən onlara da pay düşür və bu təntənə onların da halal haqqıdır.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# İşğaldan azad edilmiş ərazilər onlara əmanətdir

**Azərbaycan polisinin yaranmasının 103-cü ildönümünü doğma torpaqlarda həmkarlarımız əsl bayram ovqatı ilə qarşılayıblar. Çünki illərin həsrətinə son verilib...**

Böyük fəxr və sevinci hissi ilə qeyd etmək lazımdır ki, ötən il Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun sentyabrın 27-də başladığı əks-hücum əməliyyatı nəticəsində torpaqlarımız işğaldan azad edildi. Hər qarışı uğrunda mübarizə apardığımız yurd yerlərində bu gün polis əməkdaşları ilə birgə DİN daxili Qoşunlarının hərbi qulluqçuları ayıq-sayıq xidmət aparırlar.

Bu gün böyük qayıdışdan sonra doğma yurdlarına qayıdan soydaşlarımızın, bu yerlərə təşrif buyuracaq qonaqların təhlükəsizliyinin təmin edilməsi üçün minalarla və müxtəlif partlayıcı vasitələrlə çirkləndirilmiş ərazilərin aşkar edilməsi, həmin silah-sursatların aidiyyəti üzrə təhvil verilməsi istiqamətində məqsədyönlü işlər görülür. Belə ki, Vətən müharibəsindən ötən dövr ərzində rayon polis şöbələrinin əməkdaşları tərəfindən 100-dən artıq piyada və tank əleyhinə mina, tərk edilmiş hərbi mövqelərdən xeyli sayda partlayıcı vasitələr və döyüş silah-sursatları, eləcə də hərbi texnikalar tapılaraq müvafiq qurumlara təhvil verilib. Bütün bunlarla yanaşı, narkotik tərkibli bitkilərin yetişdiyi ərazilər də müəyyən olunub və 11 tondan artıq çətənə bitikisi yandırılıb. Həmçinin qanunsuz olaraq işğaldan azad edilmiş əraziyə keçməyə cəhd göstərərək özünün və digərlərinin həyatını təhlükə qarşısında qoyan şəxslərin aşkar edilərək məsuliyyətə cəlb edilməsi istiqamətində də mütəmadi tədbirlər həyata keçirilib. Bu tədbirlər zamanı 100-dən artıq şəxs saxlanılıb, onlardan 76-sı isə inzibati qaydada həbs edilib.

Ötən dövr ərzində işğaldan azad edilmiş ərazilərdə görülən genişmiqyaslı tədbirlər bundan sonra da davam etdiriləcək.

*Aslan Qiyaslı,*
*polis baş leytenantı*

# Tanınmışların təbriki

## *Vəzifə borcumuz, vətəndaş mövqeyimiz, amalımız, budur: İnamı doğrultmaq və Vətənə xidmət*

Çətinliyə düşəndə, problemlə üzləşəndə, hər hansı bir mübahisə doğuran məsələnin ədalətli həllinə nail olmaq istəyəndə dilimizə ilk gələn onun adı olur, gözümüz onu axtarır, biz sözlə, polis könlümüzün rahatlıq tapdığı adlardandır. Çünki bu adın



xilqətində qorumaq, ədalətli mühakimə etmək, haqqı-nahaqqa verməmək var. Ünvanı ən çox axtarılan, qapısı ən çox döyülən də polisdir. Bəzən elə "yanan da polisdir, yaman da". Harada olmağımıza baxmayaraq, istər evdə, istər küçədə düşdüyümüz çətin durumlarda üççə rəqəmi yığmaqla onlardan asanlıqla kömək istəyirik. Hərdən "bostanına daş atanlar" da tapılır. Amma o, elə onu qınaq hədəfinə çevirənlərin, onların doğmalarının hayına ən çətin anlarda gəlməklə xilaskarlığını sübut edir.

Qoruqçu oldu polisimiz. Öncə Vətən qoruqçusu. Ön cəbhədə düşmənlə, arxa cəbhədə isə qardaşın hətta bir-birinə güllə atacaq həddə çatdığından istifadə edən "sapı özümüzdən olan ağzı da, nəfsi də iti qanlı baltalarla" çarpışdı, döyüşdü, içdiyi sədaqət andına qanı, canı bahasına olsa belə sadiq qaldı. Cinayətkarlıqla mübarizəyə gəlincə: İlk cümhuriyyətimiz qurulanda necə idisə, bu gün də eyni qətiyyət, eyni dəmir nizam-intizam nümayiş etdirir Azərbaycan Polisi.

Tarixə 44 günlük müharibə kimi düşən Vətən savaşı Azərbaycan Polisinin də sınaq meydanı oldu. Biz həm də ona görə qələbə qazandıq ki, döyüşən əsgərin, zabitin gözü arxada qalmadı, ailəsindən, balasından nigaran olmadı. Çünki onların arxasında regionun ən güclü dövləti dayanırdı. Dövlətin bütün strukturları ön cəbhə üçün səfərbər olsalar da arxa cəbhə daha etibarlı qorunurdu. Hər birimizin istəyi, nə yolla olursa-olsun, o torpaqların alınması idi. Biz dəmir yumruğumuzun gücünə torpaqlarımızı işğaldan azad edib, düşmənə ömür boyu unuda bilməyəcəyi məğlubiyyət acısı yaşatdıq. Bu gün Azərbaycan Polisi, Azərbaycan Əsgəri azad olunmuş torpaqlarda xidmətini təşkil edir, üzərinə düşən görəvi layiqincə yerinə yetirir. Qürurverici haldır ki, 30 il həsrətini çəkdiyimiz Qarabağımızda, işğaldan azad olunmuş torpaqlarımızda Polisin 103 illiyi qeyd olunacaq. Bu isə Azərbaycan polisləri üçün ikiqat bayram olacaqdır.



Azərbaycan Polisinin yaranmasının 103-cü ildönümü münasibətilə Daxili İşlər Nazirliyinə onlarla təbrik məktubu gəlib. Bu gün hər birimizin yaxşı tanıdığı, dəyər verdiyi sənətçiləri, ictimaiyyət nümayəndələri, jurnalistlər, hətta qardaş Türkiyənin tanınmış iş adamları da ünvanımıza xoş sözlər deyir, duyğularını bölüşürlər.

**Türk Dünyası və Beynəlxalq İş Dünyası İnvestisiya İttifaqı Konfederasiyasının baş direktoru Hakan Aktürk** Azərbaycan Polisinin yaranmasının 103-cü ildönümü münasibətilə təbrikində yazır: "Canları bahasına xidmət göstərən Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə təşəkkürlərimi bildirirəm. Onlar da digər hüquq mühafizə orqanları kimi terrorla, cinayətkar ünsürlərlə mübarizədə, Azərbaycan Respublikasının dörd tərəfində təhlükəsizlik və sabitliyin qorunmasında əhəmiyyətli vəzifələri öhdələrinə götürməklə gecə-gündüz böyük fədakarlıq, cəsarət və qəhrəmanlıq nümayiş etdirirlər.





Polislərimizin vəzifələrini icra edərkən ən böyük gücü xalqımızın inamı, etimadı və Vətən sevgisi ilə yoğrulan yüksək vəzifə şüurudur. Koronavirus pandemiyasına qarşı icra etdiyimiz mübarizədə də polis təşkilatımız ən öndə yer almışdır. Əziz millətimiz üçün canı bahasına vəzifəsini icra edən bütün Azərbaycan Polisinə ölkəmin və millətimin adından təşəkkürlərimi bildirirəm. Polis təşkilatımızın bütün şəhidlərini rəhmətlə anırıq, qazilərimizə sağlam və uzun ömür arzu edirik. Azərbaycan Polisimizin 103-cü ildönümünü təkrarən ürəkdən təbrik edir, millətimiz üçün iftixar səbəbi olan polis dostlarımıza işlərində uğurlar arzu edirəm, onlara ən səmimi hissimlə təbriklərimi çatdırıram".

**Etika Akademiyasının rəhbəri Günel İbrahim:** "Hörmətli Azərbaycan Polisi! Həyatınızı son dərəcə məsuliyyətli, riskli, çətin və vacib bir işə - qanun keşikçisi olaraq cəmiyyətə xidmətə həsr etmisiniz. Peşəkar fəaliyyətinizdə, sabitlik və qanunun aliliyinə hörmət, yeni nailiyyətləri təmin etmək və cinayətkarlıqla daha qətiyyətli mübarizə aparmaq üçün sizə uğurlar arzulayıram.

Bu gün mən Etika Akademiyasının rəhbəri kimi sizlərlə sıx ünsiyyətdəyəm. Bir çox layihələrə birlikdə imza atmışıq. Müşahidələrimə əsaslanıb deyə bilərəm ki, Azərbaycan Polisinin



sıralarında nümunəvi davranışı ilə fərqlənən, fəaliyyətini xalqa xidmət, dövlətçilik, qanunçuluq, anda sədaqət prinsipləri üzərində quran geniş dünyagörüşlü gənclər yetişir. Qazandığınız hər bir uğur dövlətə və dövlətçiliyə xidmət edir. Sizi bir daha təbrik edir, yaşasın Azərbaycan Polisi deyirəm".

**Xalq şairi Vahid Əziz** - Vətənə sadiq əsgər olan polislərimiz haqqında çoxlu şeirlər yazılıb, mahnılar bəstələnib. Hələ bundan sonra da yazılacaq və bəstələnəcək. Bu, bütün dönəmlərdə belə olub: hər bir fədakarlıq, qəhrəmanlıq şeirə dönür, mahnıya çevrilir, yaddaşlara köçür.

Azərbaycan sabitlik adasıdır fikri əbəs yerə deyilməyib. Ölkəmizdə hər il onlarla beynəlxalq tədbir keçirilib, xarici ölkələrdən qonaqlar, turistlər gəlib. Onları Azərbaycana gəlməyə, gəzməyə cəlb edən qüvvənin adı sabitlikdir. Gecə-gündüz hüquq mühafizə orqanları, o cümlədən Azərbaycan Polisi tərəfindən qo-



runan asayişdir. Polis həm də xilaskardır. Televiziyada, sosial şəbəkələrdə polis vətəndaşların köməyinə çatıb, onlara təhlükədən daha yaxın olmaları barədə xəbərlərə rast gəlirik. Azmı olub özgənin həyatını qurtararkən özü yaralanan, həyata əbədi gözlərini yuman polislərimiz. 103 yaşlı polisimi, cümhuriyyət yaşıdı olan bu gözəl qurumun hər bir əməkdaşını təbrik edir, onlara çətin, lakin şərəfli xidmətlərində sağlamlıq, səbr və dözüm arzulayıram.

**Millət vəkili Vüqar İskəndərov** - 2 İyul Azərbaycan Polisinin peşə bayramıdır. Bu, həm də Azərbaycan xalqının bayramıdır. Çünki polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Asayiş keşikçiləri içdikləri anda, daşıdıqları ada sadiq qalaraq dövlətə, dövlətçiliyə, hər bir Azərbaycan vətəndaşına xidmət edir.

Etiraf edək ki, son illərdə polisin xidməti daha da çətinləşib. İkinci Qarabağ savaşında bizlər polisimizin necə böyük bir fədakarlığının şahidi olduq. Ön cəbhəyə yaxın ərazilərdə xidmət aparmaq, odun-alovuun içində ordusuna, əsgərinə dayaq durmaq kimi şərəfli missiyanı da yerinə yetirdi polis.

İstər karantin rejimi dövründə, istərsə də son günlər bəzi məhdudiyyətlərin yenidən tətbiq olunduğu hazırkı şəraitdə qaydalara əməl olunması, təhlükəsizliyin təmini istiqamətində polisin fəaliyyəti danılmazdır. Yardımsevərliyi ilə də seçilir asayiş keşikçiləri. Sosial duruma aşağı olanların köməyinə çatır, onlara yardım əlini uzadır, humanist davranışları ilə həm də milli həmrəyliyə töhfə verir. Bütün bunlar isə vətəndaşlar tərəfindən məmnunluqla qarşılanır. Xalqımız polisi sevir və onunla qürur duyur.

**Tarixçi-alim Nazim Mustafa** – Polisin çətin və sınaqlarla dolu tariximizdə öz yeri var. Ermənilərin torpaqlarımıza təcavüzünün qarşısını alanların ilk sırasında Azərbaycan Polisinin olması təsadüfi deyildi. Öz sələflərinin davamçıları kimi onlar üzərlərinə götürdükləri tarixi missiyanı yerinə yetirmək üçün canlarından keçməyə hazır idilər. Peşəkar və vahid komandanlıq tərəfindən idarə olunan ordunun olmaması torpaqlarımızın işğalı ilə nəticələnsə də birinci Qarabağ savaşında igid oğullarımızın, o cümlədən polisimizin qəhrəmanlığına şahidlik etdik. Qanlı Yanvarda da şəhidlərin sırasında polis əməkdaşları vardı.

İkinci Qarabağ savaşında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 66 hərbi qulluqçusunun şəhidlik zirvəsinə ucalmasını qəhrəmanlıq ənənələrinin davamı kimi qiymətləndirmək olar. Onlar xalqımızın qürur və iftixar yeridir. Bu gün ölkəmiz əmin-amanlıq şəraitində yaşayır. Biz buna görə Polisimizə minnətdarıq. Təhlükəsizliyimizin keşiyində dayanan, bizə təhlükədən yaxın olan, Cümhuriyyətimizlə həmyaşıd Azərbaycan Polisi, Sizi 103 yaşınızın tamam olması münasibətilə təbrik edir, çətin və şərəfli peşənizdə uğurlar arzu edirəm.

**Xanəndə, Əməkdar artist Süleyman Abdullayev** – Dünyanın ən ədalətli, ən fədakar polisi Azərbaycan Polisidir. Pandemiyanın ilk günlərindən polisin həkimlərimiz qədər necə böyük bir məsuliyyətli işin öhdəsindən gəldiyinin hər birimiz şahidi olduq. Gəncliyimizi zərərli vərdişlərdən qorumaq üçün gecəli-gündüzlü xidmət aparanları, sabitliyi, əmin-amanlığı təmin edənləri - əziz polislərimizi peşə bayramları münasibətilə təbrik edir, onlara xoş günlər diləyirəm.

*Hafiz Təmirov,*
*Ruhiyyə Əliyeva*

# Gənclər görüşə gəlmişdilər

Azərbaycan Polisinin yaranmasının 103-cü ildönümü ərəfəsində bir qrup gənc fəal həmkarlarımızla görüşüb.

Uğur Gənclər Qrupunun üzvləri əvvəlcə şəhid polis Polad Ərəbovun adına olan bulaq kompleksini ziyarət ediblər. Ailə üzvlərinin də iştirak etdiyi görüşdə şəhid həmkarımızın əziz xatirəsi anılıb, keçdiyi şərəfli xidmət yolu xatırlanıb. Şəhidin ailəsi onlara göstərilən daimi diqqət və qayğıya görə DİN rəhbərliyinə, eləcə də gənclərə minnətdarlığını bildirib.

Sonra gənc fəallar Tərtər Rayon Polis Şöbəsinin rəhbərliyi və şəxsi heyəti ilə görüşüblər. Peşə bayramları münasibətilə paqondaşlarımızı təbrik edən gənclər təhlükəsizliyin, əmin-amanlığın sadiq keşikçilərinə hər zaman dəstək olduqlarını bildirərək bu çətin, lakin şərəfli xidmətdə onlara uğurlar arzulayıblar.





Görüşdə Tərtər RPŞ-nin əməkdaşları gəncləri maraqlandıran sualları cavablandırıb, tövsiyələrini çatdırıblar.

**Uğur Gənclər Qrupunun rəhbəri Günel Abbasova** səmimi qəbula, maraqlı görüşə, eləcə də rayonda həyata keçirdikləri tədbirlərdə onlara dəstək nümayiş etdirdiklərinə görə polis əməkdaşlarına təşəkkürünü bildirib.

*Teymur Əlizadə, polis mayoru*

# Xəzri sizi gözləyir




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 01 iyun - 15 sentyabr 2021-ci il tarixlərdə mövsüm üzrə qiymətləri**

**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 33,75 manat (iki nəfərlik nömrəni tək tutduqda 52,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 101,25 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 82,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 135,00 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 165,00 manat təşkil edir.

4. 6 yaşadək uşaqların qalması ödənişsizdir.

5. Qiymətlərə pulsuz 3 dəfə yemək, yaşayış xərcləri, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metro stansiyasından 171 nömrəli avtobus gəlir.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51;**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**Veb-sayt: www.khazri.mia.gov.az**
**E-poçt: info@khazri.mia.gov.az**

**01 iyun - 15 sentyabr 2021-ci il**

**(2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 270 manat, bir nəfər tək qaldıqda 210 manat)**

| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
|---|---|---|
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 33,75 manat | 52,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 67,50 manat | 105,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 30,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 135,00 manat | 210,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 60,00 manat | |

**Xətai RPİ 35-ci PB** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Bakı şəhər sakini B.Sadıqov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan heroin və metamfetamin aşkar edilmişdir. Davam etdirilən tədbirlərlə ona məxsus "Hyundai" markalı avtomobilin yük yerinə baxış zamanı isə oradan 10 kiloqram 125 qram marixuana götürülmüşdür.

◆◆◆

**Nəsimi RPİ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Sumqayıt şəhər sakini, əvvəllər məhkum olunmuş A.Məmmədovdan "AKM" markalı avtomat və 11 ədəd patron aşkar edilərək götürülmüşdür. Faktla əlaqədar Cinayət Məcəlləsinin 228-ci maddəsi ilə cinayət işi başlanmışdır.

◆◆◆

İyunun 22-də saat 2 radələrində Gəncə şəhəri Cavadxan qəsəbəsi ərazisində şəhər sakini A.Həsənovaya məxsus evdə yanğın baş vermişdir. Nəticədə 150 kvm. sahədə dam örtüyünün yanar konstruksiyaları yanmış, xəsarət alan olmamışdır.

**Kəpəz Rayon Polis İdarəsinin** əməkdaşları tərəfindən aparılan araşdırmalarla yanğının Gəncə şəhər sakini, əvvəllər məhkum olunmuş A.Abdıyev tərəfindən qəsdən törədilməsi müəyyən edilmiş və o, saxlanılmışdır. Araşdırma aparılır.

◆◆◆

**Qusar RPŞ-yə** iyunun 27-də rayon ərazisindəki evlərin birindən 11800 ma-




nat oğurlanması barədə məlumat daxil olmuşdur.

Polis əməkdaşlarının keçirdikləri təxirəsalınmaz əməliyyat tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Yevlax rayon sakini Aygün Məmmədova olduğu və həyat yoldaşı E.Abdullayevlə birlikdə sonuncuya məxsus "Ford Tranzit" markalı nəqliyyat vasitəsi ilə Yevlax istiqamətində hərəkət etdiyi müəyyən edilib. Görülmüş tədbirlərlə həmin avtomobil iyunun 27-də saat 23 radələrində BDYPİ-nin Hacıqabul rayonu ərazisində yerləşən postunda saxlanılmış, onlar istintaqa təhvil verilmişlər.

Şəxsi axtarış zamanı A.Məmmədovadan 10910 manat və 1 ədəd qızıl üzük, avtomobilə baxış zamanı isə "AKS-74U" markalı avtomat, 24 ədəd patron və 1 ədəd patron darağı aşkar edilərək götürülmüşdür.

Qusar RPŞ-də cinayət işi başlanılıb, istintaq-əməliyyat tədbirləri aparılır.

◆◆◆

**Ağcabədi RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində şəhər sakini E.Qədimovun evinin həyətinə baxış zamanı "TT" markalı tapança, 2 ədəd patron darağı və 5 ədəd patron aşkar edilərək götürülmüşdür.

*Natiq Cavadov*

# "Xaşxaş-2021" tədbirləri davam etdirilir

Balakən RPŞ-nin əməkdaşları Tülü kənd sakini E.Akqubayevə məxsus həyətyanı sahədən 28 ədəd, İsmayıllı RPŞ-nin əməkdaşları Qubaxəlilli kənd sakini E.Quliyevə məxsus həyətyanı sahədən 25 ədəd, Xaçmaz RPŞ-nin əməkdaşları şəhər sakini F.Məmmədova məxsus həyətyanı sahədən 24 ədəd, Sabunçu RPİ 14-cü PB-nin əməkdaşları Maştağa qəsəbə sakini İ.Qasımova məxsus həyətyanı sahədən 165 ədəd, Quba RPŞ-nin əməkdaşları şəhər sakini E.Səfərova məxsus həyətyanı sahədən özü və həmyerlisi M.Qasımov tərəfindən yetişdirilmiş 31 ədəd, Ağcabədi RPŞ-nin əməkdaşları Hüsülü kənd sakini X.Allahverdiyevaya məxsus həyətyanı sahədən 17 ədəd kultivasiya yolu ilə yetişdirilmiş çətənə kolları, Abşeron RPİ-nin əməkdaşları Hökməli qəsəbə sakini, əvvəllər məhkum olunmuş N.Balabəyova məxsus həyətyanı sahədən kultivasiya yolu ilə yetişdirilmiş 16 ədəd çətənə kolu və marixuana, Sabirabad RPŞ-nin əməkdaşları şəhər sakini, əvvəllər məhkum olunmuş R.Əhmədovun yaşadığı evə baxış zamanı oradan 633 qramdan artıq, həyətyanı sahəsindən isə kultivasiya yolu ilə yetişdirilmiş 17 ədəd çətənə kolu və 10 kiloqram 150 qram marixuana, Hacıqabul RPŞ-nin əməkdaşları şəhər sakini Ə.Əlihəsənova məxsus həyətyanı sahədən 9 ədəd çətənə kolu və 140 qram marixuana, Balakən RPŞ-nin əməkdaşları Katex kəndi ərazisində Şəki rayon sakini, əvvəllər dəfələrlə (7 dəfə) məhkum olunmuş N.Həsənov tərəfindən kultivasiya yolu ilə yetişdirilmiş 460 ədəd çətənə kolu və 92,4 kiloqramdan artıq marixuana, Yasamal RPİ 28-ci PB-nin əməkdaşları əvvəllər məhkum olunmuş C.Cəbrayılovun yaşadığı evə baxış zamanı dibçəkdə kultivasiya yolu ilə yetişdirilmiş 14 ədəd çətənə kolu, Pirallahı RPŞ-nin əməkdaşları qəsəbə sakini, əvvəllər məhkum olunmuş E.Qəhrəmanovun yaşadığı evə baxış zamanı 400 qram marixuana, həyətyanı sahəsindən 11 ədəd kultivasiya yolu ilə yetişdirilmiş çətənə kolu aşkar edərək götürmüşlər.

Göygöl RPŞ-nin əməkdaşları tərəfindən Çaykənd kəndi ərazisində çəkisi 3,1 tondan artıq 9773 ədəd, İsmayıllı RPŞ-nin əməkdaşları tərəfindən Xanagah kəndi ərazisində çəkisi 1,3 tona yaxın 1548 ədəd, Lerik RPŞ və DSX-nin əməkdaşları tərəfindən Orand kəndi ərazisində çəkisi 1,5 tona yaxın 14456 ədəd, Ağdam RPŞ və DTX-nin əməkdaşları tərəfindən Əliağalı kəndi ərazisində 1074 ədəd, Ağsu RPŞ-nin əməkdaşları tərəfindən Dilman kəndi ərazisində çəkisi 1,1 ton olan 2670 ədəd, Zərdab RPŞ-nin əməkdaşları tərəfindən Alcanlı kəndi ərazisində çəkisi 1,4 tondan artıq 1275 ədəd, Zəngilan RPŞ-nin əməkdaşları tərəfindən Yenikənd kəndi ərazisində 760 ədəd, Zaqatala RPŞ-nin əməkdaşları tərəfindən Kürdəmir kəndi ərazisində çəkisi 1,9 ton olan 2950 ədəd, Meşləş kəndi ərazisində 1,8 ton çəkidə 2890 ədəd, Dağlı kəndi ərazisində 3,2 ton çəkidə 5125 ədəd, Quba RPŞ-nin əməkdaşları tərəfindən Xanagah kəndi ərazisində çəkisi 4,2 ton olan 5700 ədəd, Xocalı RPŞ-nin əməkdaşları tərəfindən Goranboy rayonunun Mənəşli kəndi ərazisində çəkisi 3 ton olan 4800 ədəd, Ağstafa RPŞ-nin əməkdaşları tərəfindən Muğanlı kəndi ərazisində çəkisi 3,5 ton olan 12400 ədəd yabanı halda bitmiş çətənə kolları aşkar edilərək məhv edilmişdir.

## İyun ayının 23-dən iyulun 1-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 357 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 64 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 362, o cümlədən borclu şəxs qismində axtarışda olan 234 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 17 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 18 nəfər ölmüş, 10 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 206 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9115
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 23:30
Qiyməti 40 qəpik